## İtaliya ilə əməkdaşlıq

- AQTA ilə İtaliya Respublikasının müvafiq qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində əməkdaşlıq həyata keçirilir.
- 2024-cü il 21 iyun tarixində AQTA ilə İtaliya Respublikasının Səhiyyə Nazirliyi nümayəndələri arasında görüş keçirilmiş, bir sıra qarşılıqlı maraq doğuran məsələlərə dair müzakirələr aparılmışdır.
- 2024-cü ilin 8–10 may tarixlərində AQTA nümayəndələri Rimini şəhərində keçirilmiş Macfrut 2024 beynəlxalq meyvə və tərəvəz sərgisində iştirak etmiş, “Made in Azerbaijan” stendində ölkəmizin qida məhsulları və nəzarət prosedurları ilə bağlı təqdimatlar həyata keçirmişdir.
- 2023-cü il 1 yanvar tarixindən qüvvəyə minmiş “Qida təhlükəsizliyi haqqında” Qanunun tələbləri çərçivəsində İtaliya tərəfinə məlumat təqdim olunmuş və 2024-cü il 8–9 fevral tarixlərində İtaliyanın Egidio Galbani S.R.L və Caseifici Granterre S.P.A. müəssisələrində yerində yoxlamalar aparılmışdır.
- 2023-cü il 19 iyul tarixində AQTA və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyinin Milli Fitosanitar Xidmətinin nümayəndələri arasında onlayn görüş keçirilmişdir.